**23.04.2009**
**MƏNBƏ: www.mcg.ge**

**Əlavə maliyyə dəstəyi hesabına bir yeni müqavilə daha imzalandı**

22 apreldə Samtsxe-Cavaxetiya yolunun reabilitasiyası layihəsi çərçivəsində "Minilliyin Çağırışı – Gürcüstan" Fondunun direktoru Corc Abuşelişvili və beynəlxəlq tenderdə qalib gılmiş Azərbaycanın tikinti şirkəti "Azərinşaatservis" MMC-nin Gürcüstan filialının direktoru Levan Anquldaze dəyəri 8,4 milyon ABŞ dolları həcmində olan müqavilə imzalamışdır.

Müqaviləyə əsasən "Azərinşaatservis" MMC Sulda-Kartsaki-Türkiyə sərhədi avtomobil yolunun (16 km) reabilitasiya işlərini həyata keçirəcək. Bu tikinti işlərinə 2009-cu ilin yazında başlanılması və 2010-cu ilin sonlarıına doğru tamamlanması nəzərdə tutulur. Tikinti işləri ötən ilin 20 noyabrında "Minilliyin Çağırışı – Gürcüstan" Fondunun almış olduğu ləavə 100 milyon ABŞ dolları həcmində maliyyə dəstəyi hesabına həyata keçiriləcək.

*"Minilliyin Çağırışı – Gürcüstan" Fondu*